# I Avropa Oyunlarında medal qazanmış karateçilərlə görüş

Gənclər və İdman Nazirliyində "Bakı 2015" I Avropa Oyunlarında medal qazanmış Azərbaycan karateçiləri ilə görüş keçirilib. Media nümayəndələri ilə görüşdə Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Mirkamil Rəhimov, Azərbaycan Milli Karate Federasiyasının (AMKF) prezidenti Yaşar Bəşirov, baş məşqçi Rəhman Hətəmov və medal qazanmış idmançılar iştirak edib.

Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov I Avropa Oyunlarının ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olduğunu bildirdi. O, ilk Avropa Oyunlarının öz möhtəşəmliyi ilə fərqləndiyini, I Avropa Oyunlarının keçirilməsi üçün lazım olan bütün işlərin ölkənin birinci xanımı, Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi ilə yüksək səviyyədə təşkil edildiyini qeyd etdi.



Y.Bəşirov I Avropa Oyunlarında karateçilərimizin nəticələrindən razı qaldığını bildirdi: "İlk olaraq, karateçilər yarışa qatıldı. İlk medal İlahə Qasımovanın adına yazıldı. Rafael Ağayev də öz sözünü dedi və bir nömrə olaraq qaldı. 21 dəfə himnimiz səsləndi ki, bunların da 4-ü karateçilərimizin payına düşdü. Bundan gözəl nəticə ola bilməz".

Yaşar Bəşirov respublikamızda idmana, o cümlədən karateçilərimizə göstərilən qayğıya, yaradılmış şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə, Gənclər və İdman naziri Azad Rəhimova karateçilər adından minnətdarlığını bildirdi. Karateçilərin növbəti yarışlarda da bu qayğıya cavab olaraq yüksək nəticələr qazanacaqlarına əmin olduğunu bildirdi.

Tədbirdə Milli komandanın məşqçisi Rəhman Hətəmov karateçilərimizin məşqlərinin uğurla davam etdiyini və qarşıda duran İndoneziyada keçiriləcək yeniyetmə və gənclər arasında dünya çempionatında, 2017-ci il İslam Həmrəyliyi Oyunlarında və digər mötəbər yarışlarda da medal qazanmaq üçün sistemli məşqlərin aparıldığını qeyd etdi.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Mirkamil Rəhimov Azərbaycanin I Avropa Oyunlarında idman ölkəsi olduğunu sübut etdiyini bildirdi. Azərbaycan idmançılarının qazandığı medalların sayına görə II yerə çıxması isə xüsusilə əlamətdar bir hadisə olmaqla ölkəmizdə idmana göstərilən qayğının nəticəsidir.

Görüşdə "Bakı 2015" I Avropa Oyunlarında karate üzrə ölkəmizə medal qazandırmış Rəfail Ağayev, İrina Zaretska, Ayxan Mamayev, Firdovsi Fərzəliyev, Niyazi Əliyev, İlahə Qasımova öz təəssüratları ilə bölüşdülər.

Tədbirdə KİV nümayəndələrinin çoxsaylı sualları cavablandırıldı.

**Samir ZEYNALOV,**
**"Respublika".**